# Azərbaycanın enerji siyasəti də yeni mərhələyə qədəm qoyur

Dövlətimizin başçısı fevralın 14-də keçirilən andiçmə mərasimində bildirdi ki, ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək: "Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir". Prezident İlham Əliyev qaz hasilatı və ixracı məsələlərinə də toxunmuşdur. Belə ki, biz artıq səkkiz ölkəyə mavi yanacaq ixrac edirik.

→ 7

# Azərbaycanın enerji siyasəti də yeni mərhələyə qədəm qoyur

**1994-cü ildən üzü bəri Azərbaycanın həyata keçirdiyi neft, qaz və ixrac layihələri dünyanın diqqət mərkəzindədir. Çünki hasil etdiyimiz karbohidrogenləri daşıyan kəmərlər, Xəzərlə Qara və Aralıq dənizlərini birləşdirən, Adriatik dənizinin altından keçib sahilində şaxələnən ixrac marşrutları bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır.**

Bir zamanlar isə bu layihələrə mane olmaq istəyənlər, ümumiyyətlə, Azərbaycanda bu kəmərləri dolduracaq qədər neftin və qazın olmadığı barədə səhv fikirlər söyləyən, əslində, böhtan atanlar az deyildi. Həmin layihələrin qələbə çalması, indi təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirməsi belələrinə ən tutarlı cavabdır.

Azərbaycanın yeni neft strategiyasının möhkəm təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və artıq 20 ildən çoxdur Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir, bu sahədə misilsiz nailiyyətlərə imza atılır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri artıq 18 ildir fasiləsiz və təhlükəsiz şəkildə fəaliyyət göstərir. İndiyədək bu kəmərin daşıdığı neft Ceyhan terminalında 5557 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

"Azəri-Çıraq- Günəşli" (AÇG) yataqları 26 ildən çoxdur neft və səmt qazı verir. 2017-ci ilin sentyabrında isə bu yataqların işlənməsinin müddəti əsrin ortasınadək uzadıldı. İndi "Azəri Mərkəzi Şərqi" adlanan yeni layihə çərçivəsində ilk neftin yolunu gözləyirik.

Neft diyarı kimi tanınan Azərbaycan ötən illər ərzində qısa bir zamanda qaz ixrac edən ölkə kimi də şöhrət tapdı. İndi Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq 3500 kilometr məsafə qət edən "Cənub qaz dəhlizi" İtaliya torpağınadək uzanır. Dünyanın bir çox görkəmli siyasətçisi və tanınmış mütəxəssisi də etiraf edir ki, bu möhtəşəm layihənin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycandır. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantılarının hər il Bakıda keçirilməsi də Azərbaycan Prezidentinin dünyadakı hörmətindən və nüfuzundan qaynaqlanır.

Dövlətimizin başçısı fevralın 14-də keçirilən andiçmə mərasimində bildirdi ki, ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək: "Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir".

Prezident İlham Əliyev qaz hasilatı və ixracı məsələlərinə də toxunmuşdur. Belə ki, biz artıq səkkiz ölkəyə mavi yanacaq ixrac edirik. 2006-cı ilin sonundan Gürcüstan Cənubi Qafqaz Boru Kəməri (CQBK), 2007-ci ilin ortalarından Türkiyə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri ilə Azərbaycan qazı alır. Genişləndirilmiş CQBK-dən, TANAP-dan ( Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarət "Cənub qaz dəhlizi" isə Avropanın enerji xəritəsini dəyişdirən bir layihə oldu. Belə ki, qoca qitə yeni mənbədən yeni marşrutla mavi yanacaq aldı. Bu marşrut getdikcə şaxələnir, yeni interkonnektorlar qaz idxalçısı olan ölkələrin şəbəkəsini genişləndirir. 2022-ci il oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun, 2023-cü il dekabrın 10-da isə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib. Beləliklə, indi ölkəmiz Gürcüstan və Türkiyədən əlavə, İtaliyaya, Bolqarıstana, Yunanıstana, Rumıniyaya, Macarıstana və Serbiyaya qaz ixrac edir.

Bu barədə dövlətimizin başçısı demişdir: "Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir. Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə".

İxracın artması üçün isə bir sıra vacib şərtlər var ki, bunlardan biri də hasilatın artmasıdır. Hazırda ixracın əsas mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağı olsa da, yaxın gələcəkdə ondan sonrakı sıraya qoşulacaq yataqlar da var. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir".

Prezident İlham Əliyevin enerji siyasətinin növbəti reallığı "yaşıl enerji"nin inkişafı ilə bağlıdır. Azərbaycan bu sahədə də ön sıralardadır. Bu sahədə artıq bir neçə layihəyə uğurlu start verilib. Keçən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası müvəffəqiyyətlə istismara daxil olub. Ölkəmizin geniş bir ərazisi - işğaldan azad olunmuş bölgələrimiz Prezident tərəfindən "yaşıl enerji" zonası elan edilib. Bərpaolunan enerji mənbələri ilə zəngin olan Naxçıvan da həmçinin "yaşıl enerji" zonası elan edilib və burada bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

"Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro - su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək... Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib".

Ölkəmizin iqlim dəyişikliyi məsələlərinə də töhfələri çox olacaq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa evsahibliyi edəcək.

Yeri gəlmişkən, onu da qeyd edək ki, ölkəmiz indiyədək bir çox mötəbər tədbirə evsahibliyi edib və bu sahədə də zəngin təcrübə toplayıb. Bu ilin sonunda dünyanın nəzərləri yenidən Bakıya dikiləcək. COP-29-un iştirakçıları və qonaqları bir daha Azərbaycanın əldə etdiyi nailiyyətlərin şahidi olacaqlar. Həm də təkcə ekologiyanın qorunmasında, enerji, o cümlədən "yaşıl enerji"də deyil, bütün sahələrdə müdrik liderimiz İlham Əliyevin rəhbərliyi ilə qazandığımız uğurları əyani görəcəklər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 16 fevral, № 35.- S.1, 7.